**Elçin Mirzəbəyli**

# *Anamın duası*

qanun nəşriyyatı

**Elçin Mirzəbəyli. Anamın duası**
Bakı, QANUN nəşriyyatı, 2023, 144 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 09.11.2023

Redaktor: Nüşabə Fətullayeva-Mirzəbəyli
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

QANUN nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-837-4

© QANUN nəşriyyatı, 2023
© Elçin Mirzəbəyli, 2023

# Zafar duyğuları

## Nə gözəl dalğalanır Azərbaycan bayrağı

Sözü dönük dünyanın hər üzü bəlli oldu,
Yolumuz haqq yoluydu - bizə təsəlli oldu...
Bu qədər qətnamədən sözü kəsərli oldu
Ali Baş Komandanın!
Dünyanın get-gəlindən izi kəsərli oldu
Ali Baş Komandanın!
Dağlar halaya durdu çayların nəğməsindən,
Qəhrəman oğulların məlhəm addım səsindən
Torpaq dərddən oyandı...
Yollar "xoş gəldin" dedi müzəffər əsgərimə,
Allah, necə yaraşır bu zəfər əsgərimə...
Xarı bülbül çəmənə, düzə yaraşan kimi,
Üçrəngli bayrağımız bizə yaraşan kimi...

Duyursanmı, Xocalı, ədalətin səsini,
Sahibinin düşməni sarsıdan nəfəsini...
Sərib yaranın üstə müqəddəs kölgəsini
Azərbaycan bayrağı!

Əs külək Xankəndidən, Şuşadan, əs Gorana,
Torpaqdan yurd doğurar əsgər ər, əsgər ana!
Nur saçır Ağdərəyə, nur saçır Əsgərana
Azərbaycan bayrağı.

Alovu and yerimiz - bir məşəl dalğalanır,
Ən qiymətli mücəvvər, zinət, ləl galğalanir -
İlahi, Xankəndidə nə gözəl dalğalanır
Azərbaycan bayrağı!

## Zəfər bizimdir

Harda yurd yeri var, orda biz varıq,
Ən uzaq yollara səfər bizimdir.
Aşıb zirvələri, yorub yolları –
Mənzilə vararıq, zəfər bizimdir!

Bir ölsək, yüzümüz doğar yerindən,
Ruhumuz dayanar çiyin-çiyinə...
Şəhid məzarının yüksəkliyindən
Vararıq Vətənin yüksəkliyinə!

Zəfərlə dirçəlir şəhid ruhları,
Başımız üstündə durur – dağ kimi!
Vətən torpağının hər qarışında
Geriyə qayıdır – Qarabağ kimi!

*Bakı, 12 dekabr 2020-ci il*

## Dərd kimi gözəlsən, Vətən!

Səni məsum anamın
yorğun ümidlərindən,
Sonsuz öyüdlərindən,
Bətnindəki ağrıdan,
Savalandan, Ağrıdan köç alan
Küskün, qərib yaddaşından tanıdım.
Bir cüt mirvari suyu -
Bir cüt kimsəsiz ocaq,
Ovuc-ovuc, qucaq-qucaq
göz yaşından tanıdım,
Vətən!

Səni kimsəsiz ümidlərin narın yağışından,
Ölümə tərk edilənlərin soyuq baxışından,
Arzu cəlladlarının arsız alqışından tanıdım,
Vətən!

Səni çərasizlik girdabında can verənlərin,
Yolunda ömrünü qurban verənlərin,
Ölümüylə sənə şan verənlərin
Yıxılmış başdaşından tanıdım,
Vətən!

Səni bitməyən bəlkələrdən,
Sürünən kölgələrdən,
Uzaq,
qərib ölkələrdən tanıdım,
Vətən!
Amma sən...

Yenə də yurd kimi gözəlsən,
Qar üstə boz-qara qurd kimi gözəlsən,
Bir yetim, kimsəsiz dərd kimi gözəlsən,
Vətən!
Dərd kimi gözəlsən...

*Bakı, 24 iyul 2021-ci il*

## Darıxmışdı yurd yeri

Darıxmışdı yurd yeri çəkmənin izlərinə,
Həsrət çəkən, yol çəkən sevdalı gözlərinə...
"Vətən sağ olsun" deyən dilinə darıxmışdı,
Torpağa sığal çəkən əlinə darıxmışdı.

Səbri daş əritsə də dözmüşdü sona kimi…
30 il yol gözləyən taqətsiz ana kimi
Diz çöküb ayağını qucmağa darıxmışdı,
Sevincdən qanad açıb uçmağa darıxmışdı...

Darıxmışdı ağaclar, darıxmışdı çiçəklər,
Bayrağını öpməyə təşnə idi küləklər...
Murovun zirvəsinə yağan qar darıxmışdı,
Minarələr,
Türbələr,
Məzarlar darıxmışdı...

Gözünü aç, Qarabağ, yuxu deyil gördüyün,
30 illik ümiddir, yaddaşına hördüyün
Bir işıq topasıdır uzaqdan bəri gəlir!
Qəhrəman övladların qayıdır geri, gəlir!
Gəlir yurdun sahibi, gəlir evin yiyəsi,
Gəlir, məğrur millətin qalib əsgəri gəlir!

*07 oktyabr 2020-ci il*

## Əsgərə məktub

Gecə...
Göy üzü lal,
Şəhər yuxuda...
Burda eşidilmir güllə səsləri...
Ay öz şəfəqini udub, qorxudan
Buluda sığınır doğandan bəri...

Qarşımda ağ vərəq, qələm, bir də su...
Birgə dirigözlü açaq səhəri...
Yenə ilhamımın qaçıb yuxusu,
Sənə məktub yazır:
“Salam, Əsgərim!

Salam, qəhrəmanım, igidim, salam,
30 il yas tutan ümidim, salam!

Başının üstündən uçur güllələr,
Mərmilər partlayır böyür-başında...
Yüz illik yağıya sipər olmusan,
Qalaya dönmüsən bu gənc yaşında...

Soyuq gecələrdə bayrağa bürün,
Bütöv ruh, bütöv bir bədən ol, qayıt.
Əsgər, yurd yerində torpağa bürün,
Amma torpaq olma, Vətən ol, qayıt!

*21oktyabr 2020-ci il*

## Azərbaycan əsgəri

Sən böyük Qələbəyə bir nəfəs qədər yaxın,
Uçuq minarələrdən qopan səs qədər yaxın...

Müqəddəs kədər bitir, müqəddəs zəfər yaxın!
Sonu çatıb zülmətin – işıqlı səhər yaxın...
Əl çatmayan arzular, uzaq üfiqlər yaxın!
Atdığın hər addımda qürurumuz yüksəlir,
Azərbaycan əsgəri!

Sən indi bayraq-bayraq ucaldığın yerdəsən,
Yetişib qisas günü – öc aldığın yerdəsən!
Ruhunun yurd yerindən güc aldığı yerdəsən...
"Yürü hey..." -
Babaların məzarından səs gəlir!
Azərbaycan əsgəri!

Daş dələn inadına nə yasaq, nə qadağa?
Bütün düşmən ordusu bir telinə sadağa...
Sanc üçrəngli bayrağı hər qayaya, hər dağa –
Arxanca el yürüyür, bayrağını as, gəlir!
Azərbaycan əsgəri!

"Yalnız irəli!" deyib Ali Baş Komandanım!
Addımında döyünür qəlbi Azərbaycanın!
Damarında çağlayan o pak, müqəddəs qanın
Gücüylə bu həsrətin düyününü kəs, gəlir!
Azərbaycan əsgəri!